***…Horadiz şəhərindən Lələtəpəyə uzağı 5-10 dəqiqəlik yoldur. Ancaq biz bu yolu az qala bir saata getdik. Özü də səbəb təkcə o deyildi ki, ilin bu çağlarında anamız təbiət min bir güllə-çiçəklə dil açıb danışır və biz bu qənirsiz gözəlliyin yanından sakitcə ötüb keçə bilmirik. Bir də geniş asfalt yolun hər iki tərəfi ilə uzanan bərəkətli taxıl zəmilərinə, bağ-bağatlara, çiyid səpini aparılan sahələrə heyranlıqla tamaşa etdik, az qala hər addımda ayaq saxladıq, kənd adamları ilə görüşdük, hal-əhval tutduq.***

# Lələtəpədən bir az bəri…

## *Söhbət Füzuli rayonunda yaz-tarla işlərinin gedişindən, bahar qayğılarından gedir*



Rasim Ağayevin başçılıq etdiyi fermer təsərrüfatının taxıl sahələri Lələtəpənin ətəklərinə qədər uzanıb gedir. Havaların əlverişli keçməsi, səpin, becərmə tədbirlərinin vaxtında və keyfiyyətlə aparılması öz nəticəsini verib. Taxıl zəmiləri adamın üzünə gülür, təcrübəli mütəxəssislərin, kənd adamlarının dediklərinə görə bol məhsul gözlənilir. Öyrəndik ki, Rasim Ağayev Horadiz kənd sakinidir. Düzdür, hələlik həmin kənd düşmən əlindədir, ancaq əkin sahələrinin böyük əksəriyyəti əlimizdədir. Üstəlik, Azərbaycanın hərb tarixinə şanlı səhifə yazmış Aprel döyüşlərindən sonra düşmən böyük itki verərək geri çəkilmiş, nəticədə yüz hektarlarla əkin sahələri ordumuzun nəzarəti altına keçmişdir. Təsadüfi deyil ki, bu il Rasim pambıq və taxıl əkini sahələrini xeyli genişləndirib. Özü bu barədə danışarkən dedi:





- Aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin qüdrətini və qəhrəmanlığını göstərməklə yanaşı, biz kənd adamları üçün də geniş imkanlar açdı, əlavə ehtiyat mənbələri yaratdı. Heç uzağa getməyək. Mən özüm bu il əkin sahələrini xeyli genişləndirmişəm. Məsələn, ötən il 90 hektarda taxıl əkmişdik. Bu il isə 150 hektarda "sarı kəhrəba" yetişdiririk. Pambıq, bostan-tərəvəz sahələrini də genişləndirmişik. Başqa sözlə desək, bu gün məhsul yetişdirdiyimiz sahələrin çoxu məhz Aprel döyüşlərindən sonra əkin dövriyyəsinə daxil edilmişdir.

**- Məhsuldarlıq necə, yaqin ki, ötənilki nəticələri bir qədər də artıracaqsınız...**

- Əlbəttə, keçənilki göstəricilərlə kifayətlənməyəcəyik. Bunu əkin sahələrinin hazırkı vəziyyəti də göstərir. Becərmə tədbirləri nəzərdə tutulmuş müddətdə və keyfiyyətlə davam etdirilir. Kollektivimizin üzvləri qərara alıblar ki, bu il taxıl sahələrinin hər hektarından ən azı 45 sentner məhsul götürsünlər.

**- Uğur olsun, əkinçi qardaş. Taxıl biçinində görüşənədək…**

- Sağ olun…

Mirmahmud İbişov "Qayıdış-9" qəsəbəsində yaşayır. Son illər taxılçılıq sahəsində rayon üzrə ən yüksək məhsuldarlıq əldə edən qabaqcıl fermerlərdən biridir. İşlərin gedişi, qarşıdakı hədəflər barədə söhbət edirik.

- Kənd adamlarının çörəyi torpaqdan çıxır, - deyə fermer sahəsinin o başında görünən suçulara əl elədi. – Ona görə də biz çalışırıq ki, əlimizdə olan torpaq sahələrini mümkün qədər çox əkib-becərək. Sözümün canı odur ki, taxıl da əkirik, pambıq da, bostan-tərəvəz də. Üstəlik, heyvandarlığı da unutmuruq. İkinci vacib məsələ nə qədər əkmək yox, hər hektardan nə qədər məhsul götürməkdir. Məsələn, biz ötən il 40 hektarda taxıl əkmişdik. Nəticələrimiz də pis olmadı. Bu il isə 60 hektar əkin əkmişik. Hədəfimiz isə belədir: hər hektardan 50 sentner taxıl əldə etməli. Bu isə ötən ildəkindən 7 sentner çoxdur. Deməli, gəlirimiz, qazancımız bol olacaq, gün-güzəranımız daha da yaxşılacaqdır.

Knyaz Mirzəyevin başçılıq etdiyi fermer təsərrüfatı isə daha çox pambıqçılıq üzrə ixtisaslaşıb. Onunla Kürdmahmudlu kəndində görüşdük. Səpinə təzəcə başlamışdılar.

- Havalar çiyid səpini üçün çox əlverişlidir. Ona görə də çalışırıq ki, hər dəqiqənin qədrini bilək, bu vacib kampaniyanı nəzərdə tutulmuş müddətdə başa çatdıraq. Onu da deyim ki, biz bu il pambıq əkini sahələrini xeyli genişləndirərək 25 hektara çatdırmışıq. Bax, gördüyünüz bu sahələrə ilk dəfə çiyid səpirik. İnanırıq ki, məhsuldarlıq da ötən ildəkindən çox olacaqdır. Daha doğrusu, konkret hədəflərimiz belədir: hər hektardan 35 sentner pambıq götürməli. Bunun üçün isə indidən etibarlı bünövrə qoyuruq. Şum, arat işləri də vaxtında və keyfiyyətlə aparılmışdır. Texnika, gübrə və s. sarıdan heç bir çətinliyimiz yoxdur. Bütün bunları ona görə sadalayıram ki, bayaq dediyimiz yüksək göstəricilər barədə danışmağa haqqımız çatır, – deyə qabaqcıl fermer inam və ümidlə danışdı.

Biz Kürdmahmudlu kəndində



daha bir fermerlə də tanış olduq. O da məlum oldu ki, Ələddin Quliyevin başçılıq etdiyi fermer təsərrüfatı pambıqçılıqla, taxılçılıqla, heyvandarlıqla yanaşı, baramaçılığa da böyük üstünlük verir. Belə ki, o, ötən il 3 qutu barama toxumu götürmüş və rayon üzrə ən yüksək nəticəyə nail olmuşdur. Bu il isə Ələddin 5 qutu barama toxumu götürməyə hazırlaşır. Bunun üçün müvafiq şərait və yem bazası da yaradılmışdır.

Ələddin Quliyev söhbət zamanı bildirdi:

- Ölkə Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının, xüsusilə pambıqçılığın, baramaçılığın, fındıqçılığın inkişafına göstərdiyi diqqət və qayğı, qəbul olunan ümumrespublika müşavirələri yerlərdə böyük canlanmaya və irəliləyişə səbəb olmuş, həmin sahələrin sürətli inkişafı ilə nəticələnmişdir. Elə götürək bizim rayonu. Ötən əsrin 70-80-ci illərində Füzulidə ildə 250-300 min ton barama istehsal olunurdu. Ancaq sonralar heç bir əsaslı səbəb olmadan bu qiymətli sahə unuduldu. Halbuki kənd təsərrüfatının ən gəlirli sahələrindən biri baramaçılıqdır. Elə ona görə də biz kənd əməkçiləri baramaçılığa böyük həvəs və maraq göstərir, ildən-ilə göstəriciləri artırırıq. Bildiyiniz kimi, ötən il bizim rayon respublika üzrə barama təhvilində ikinci yerdə olmuşdur. Bu günlərdə rayon kümçülərinin geniş yığıncağı keçirildi. Qərara aldıq ki, Füzuli rayonu taxılçılıqda, heyvandarlıqda, tikinti-abadlıq işlərində olduğu kimi, barama təhvilində də bu il öz layiqli sözünü deyəcək, respublika üzrə birincilər sırasında olacaqdır.

Biz bu ilıq bahar günlərində rayonun Alxanlı, Şükürbəyli, Yağlıvənd, Bala Bəhmənli və başqa kəndlərində də olduq, qabaqcıl fermerlərdən Fərhad İbrahimovla, Həsən Babayevlə, Hafiz Rzayevlə, Balaxan Məmmədovla iş üstündə görüşdük, yaz-tarla işlərinin gedişi, qarşıda duran hədəflər barədə söhbət etdik. Belə bir cəhət xüsusilə diqqəti cəlb edir ki, heç kim əvvəlki illərdə əldə olunmuş göstəricilərlə kifayətlənmək istəmir, daha yüksək hədəflər uğrunda səy və bacarığını əsirgəmir. Bunu əlimizdə olan fakt və göstəricilərin dinamikası da sübut edir.



Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, son illər Füzuli rayonunda sosial-iqtisadi və mədəni sahədə əsaslı dönüş yaranmış, ərazisinin 70 faizi hələ də düşmən tapdağı altında olmasına, atəşkəs rejiminin hər gün pozulmasına baxmayaraq inkişaf ardıcıl və dinamik xarakter daşıyır. Məsələn, təkcə cari ilin ötən ayları ərzində ümumi məhsul buraxılışının həcmi 25 milyon 979,7 min manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz çoxdur. Məhsul buraxılışının əsasını sənaye, kənd təsərrüfatı və xidmət sahələri təşkil etmişdir.

Əsaslı tikinti sahəsində bütün maliyyə mənbələri hesabına əsas kapitala 2434,3 min manat investisiya qoyulmuşdur. Ondan 2424,5 min manatı tikinti-quraşdırma işlərinə sərf olunmuşdur.

2018-ci ildə 36 min 871 hektar sahədə taxıl, 102 hektar kartof, 414 hektar şəkər çuğunduru və s. əkilmişdir. Hazırda 20 min 100 hektarda çiyid səpini aparılır.

Ötən dövrdə ət istehsalı 579,9 ton, süd istehsalı 6 min 901 ton, yumurta istehsalı 5 milyon 95 min ədəd olmuşdur.

Ümumiyyətlə, 2017-ci ildə kənd təsərrüfatı məhsulları istehsalında yüksək nəticələr əldə edilmişdir.

Strateji məhsul olan taxılçılığın istehsalına görə Füzuli rayonu Respublikanın 100 min tondan artıq taxıl istehsal edən rayonları sırasında öz yerini qoruyub saxlayır.

Ölkə Prezidenti respublikada ərzaq bolluğunun yaradılması, əhalinin mühüm strateji məhsul olan taxıl tələbatının daxili imkanlar hesabına ödənilməsini təmin etmək üçün ölkədə iri taxılçılıq təsərrüfatlarının yaradılmasını qarşıya məqsəd qoymuşdur. Kənd təsərrüfatının inkişafı ilə bağlı təsdiq edilmiş Strateji Yol Xəritəsinə uyğun olaraq, rayonda hər birinin sahəsi 1000 hektar olan 4 iri taxılçılıq təsərrüfatı yaradılıb, 2 min 700 hektar torpaq sahəsi müxtəlif növ kənd təsərrüfatı məhsulları istehsal edəcək Aqroparkın istifadəsinə verilib. Aqroparkın ərazisində birinci mərhələdə 1000 hektar sahədə ölkənin strateji maraqlarına uyğun olaraq, soya, qarğıdalı, taxıl, pambıq və digər bitkilər becəriləcək, həmçinin 1000 baş müasir-intensiv südlük istiqamətli heyvandarlıq kompleksi yaradılacaqdır.



Aqroparkın istifadəyə verilməsi ilə rayon ərazisində, xüsusilə 11 Qayıdış qəsəbələrində yaşayan yüzlərlə məcburi köçkün işlə təmin olunacaqdır. Layihənin bütövlükdə 2018-ci ildə tam başa çatdırılması nəzərdə tutulub. 500 hektar sahə isə rayonun taxıl istehsalçılarını yüksək reproduksiyalı toxumla təmin etmək üçün Azəraqro MMC-yə verilib.

Taxıl istehsalçıları aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə aparılması üçün 2017-2018-ci təsərrüfat ilində rayonda 36 min 419 hektar ərazidə taxıl əkini aparmışlar ki, bunun da 28 min 394 hektarı buğda, 8 min 25 hektarı isə arpadır. Havaların əlverişli keçməsi, aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə aparılması bol məhsul götürüləcəyindən xəbər verir.

Dövlətimizin iqtisadi qüdrətinin artırılmasında mühüm ərzaq məhsulu sayılan taxılçılığın gələcəkdə də inkişafı diqqət mərkəzindədir. Rayon Kənd Təsərrüfatı İdarəsi, Aqrolizinq, Toxumçuluq müfəttişliyi və digər təşkilatlar bu sahənin inkişafı üçün əsaslı tədbirlər hazırlayıb həyata keçirməli, ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasına əməli töhfə verməlidirlər.

Aqrar rayon olan Füzulidə taxılçılıqla yanaşı, digər sahələrin də inkişafına xüsusi diqqət yetirilir. Ölkə başçısının respublikada ənənəvi təsərrüfat sahələri olan pambıqçılığın və baramaçılığın inkişaf etdirilməsi, əhalinin məşğulluğunun təmin olunması barədə tapşırıqlarına uyğun olaraq, 2018-ci ildə rayonda 20 min 100 hektar ərazidə pambıq əkilməsi nəzərdə tutulmuşdur. Məsul satışı ilə bağlı 287 nəfər Füzuli Kənd Təsərrüfatı MMC ilə, 80 nəfər "Azərpambıq" MMC ilə müqavilə bağlamışdır. Onu da xatırladaq ki, strateji məhsul olan pambıq əkini 2016-cı ildə 505 hektar olduğu halda, 2017-ci ildə 2050 hektar, 2018-ci ildə isə 20 min 100 hektar olmuşdur.

Pambıq əkininin illər üzrə dinamikası isə rayonda minlərlə məcburi köçkün ailəsinin mövsümi işlərə cəlb olunmasını, onların həyat tərzinin, gün-güzəranının yaxşılaşdırılmasını göstərir.

Ənənəvi təsərrüfat sahələrindən olan baramaçılığın uzun fasilədən sonra bərpa edilməsi əhali tərəfindən böyük sevinclə qarşılanmışdır. 2017-ci ildə füzulili kümçülər tərəfindən 25 tona yaxın yaş barama istehsal edilmişdir. Qısa müddət ərzində yüksək gəlir əldə edən kümçülər 2018-ci ildə 40 tona yaxın barama istehsal etməyi qarşılarına məqsəd qoymuşlar. Bu məqsədlə rayonda 50 minə yaxın çəkil ağacı əkilmiş, ipəkqurdu saxlayacaq kümçülər müəyyənləşdirilmiş, tərəcələr toxunulmuş, saxlanc yerləri təmizlənərək dezinfeksiya edilmişdir.

O da sevindirici haldır ki, əhalinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir. Bir sıra məhsullar isə respublika bazarına çıxarılır.

Sahibkarlığın inkişafı da diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, yüzlərlə şəxs rayonda sahibkarlıq fəaliyyəti ilə məşğul olur, iqtisadiyyatın möhkəmlənməsində yaxından iştirak edir. Onlarla insan rayonda kənd təsərrüfatı, kiçik emal müəssisələri yaradaraq məhsul bolluğu yaradır, yeni iş yerləri açır, sahibkarlıq fəaliyyətlərini genişləndirirlər. Məsələn, Horadiz şəhərində 10 hektar ərazidə istixana kompleksi, Zobucuq qəsəbəsi ərazisində kənd təsərrüfatı məhsullarının satışı yarmarkası və digər obyektlər yaradılmışdır. Təkcə 2017-ci il ərzində Füzuli rayonuna iş adamları tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar 12 milyon manatdan artıq investisiya qoyulmuş, rayonda kənd təsərrüfatının, yerli istehsalın inkişafına xidmət göstərən tədbirlər həyata keçirilmiş, özəl sektorun çəkisi artırılmışdır.

Təkcə ötən il 4 mindən artıq məcburi köçkün pambıqçılıq, taxılçılıq, baramaçılıq və digər kənd təsərrüfatı sahələrində daimi və mövsümi işlərlə təmin edilmişdir.

Biz burada son illər Füzuli rayonunda kənd təsərrüfatı məhsulları istehsalı sahəsində əldə edilmiş uğurlardan, dinamik inkişaf və yüksəlişdən danışdıq. Belə bir cəhət də xüsusi maraq doğurur ki, burada sənaye, tikinti-quraşdırma, vacib sosial ehtiyatlar, vətəndaşların qəbulu, onların ərizə, şikayət və məktublarına həssas münasibət və s. məsələlər də daim diqqət mərkəzində saxlanılır. İqtisadi, sosial və mədəni məsələlərin həllinə kompleks münasibət, bu zaman ardıcıl və sistemli icra intizamı Füzuli Rayon İcra Hakimiyyətinin, onun yerli strukturlarının daimi diqqət mərkəzindədir. Başqa sözlə desək, bu gün Horadiz şəhəri öz simasını tamamilə dəyişmiş, daha müasir və yaraşıqlı olmuş, yaşıllıqlar və gözəlliklər diyarına çevrilmişdir. Onlarca müasir üslubda binalar tikilmiş, şəhər xeyli genişlənmiş, yeni küçələr, körpülər, səkilər salınmış, yüz kilometrlərlə asfalt yollar çəkilmiş, bütün yaşayış məntəqələri yüz faiz təbii qazla, elektrik enerjisi və içməli su ilə təmin olunmuşdur. Bu isə heç şübhəsiz, adamlarda böyük məmnunluq və razılıq hissləri yaradır. Onlar Dövlət qayğısından ruhlanaraq daha böyük səy və həvəslə çalışır, torpaqdan ikiqat yapışır, sabaha böyük inam və ümidlə baxırlar.

… Bölgə müxbiri kimi Füzulidə çox olmuşam. Ötən əsrin 80-ci illərində də, işğaldan əvvəl də, sonra da… Ancaq etiraf edim ki, heç vaxt indiki kimi insanların gözündə bu qədər işıq, çöhrələrində bu qədər inam görməmişdim. Mənə elə gəldi ki, bu, təkcə gün-güzərandan, bolluq-bərəkətdən doğan işıq və inam deyildi.

Bu, həm də Cocuq Mərcanlı, Lələtəpə… qələbələrindən, yaxınlaşmaqda olan bütöv Qarabağ qələbəsindən doğan işıq, inam və ümid idi…

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***